Azərbaycan Arxeologiyası Volume 25 №2 2023, 57-66
Khazar University Press DOI: 10.5782/2218-0346.2023.25.2.57

# Son Tunc-Erkən Dəmir dövrünün qol bəzəkləri

**Günay Bayramova**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
gunaybayramova296@gmail.com

**Açar sözlər**: Son Tun-Erkən Dəmir dövrü, qəbirlər, bəzək əşyaları, qolbaqlar.

Son Tunc - Erkən Dəmir dövründə sənətkarlığın və xüsusən də metalişləmənin tərəqqisi bəzək əşyalarının istehsalına da öz təsirini göstərmişdi. Sinifli cəmiyyətin və ən əsası dövlət sisteminin yaranması artıq hər bir xalqın özünüqoruma instinktini daha da zəruri edirdi. Elə bunun nəticəsi idi ki, metalişləməyə, xüsusən silah istehsalına daha çox fikir verilirdi. Son Tunc-Erkən Dəmir dövründə metal emalı yüksək səviyyəyə çatmışdı, metallurgiya öz çiçəklənmə dövrünü keçirirdi. Sənətkarlar mis, tunc, gümüş, qızıl kimi qiymətli metallardan müxtəlif təyinatlı əşyalar hazırlayırdılar.

Sənətkarlıqda silah istehsalı qədər bəzək əşyalarının istehsalı da mühüm yer tuturdu. Son Tunc-Erkən Dəmir dövrü nekropollarının tədqiqi göstərir ki, bəzək əşyalarının istehsalı qədim insanların sadəcə estetik zövqünün və sosial statusunun göstəricisi kimi deyil, onların dini inanc sisteminin və mifoloji baxışlarının bir parçası olmaqla, həm də qoruyucu funksiya daşımışdır. Qədim insanların həyatda da həmin bəzəklərdən istifadə etməsi onların qoruyucu - talisman funksiyasını bir daha təsdiq edir. Bəzəklər, eyni zamanda dərin mənəvi, dini və simvolik mənalar daşıyan əşyalardır.

Son Tunc-Erkən Dəmir dövrünə aid bəzəklərə baş bəzəkləri, boyun bəzəkləri, qol bəzəkləri, geyim bəzəkləri və nəhayət ayaq bəzəkləri aiddir. Bu məqalədə Son Tunc və Erkən Dəmir dövrünün qol bəzəkləri təhlil olunacaq.

Arxeoloji qazıntılar zamanı həm sayına, həm də çeşidinə görə ən çox əldə olunan qol və boyun bəzəkləridir. Bunun səbəbi Son Tunc-Erkən Dəmir dövründə onların daha çox istehsal edilməsi və onlardan daha çox istifadə olunmasıdır.

Qol bəzəkləri hazırlanma üsuluna görə digər bəzək əşyalarından seçilir. Tuncdan hazırlanmış qol bəzəkləri qalınlığına, keyfiyyətinə görə boyunbağılar, geyim bəzəkləri və digər bəzək əşyalarından fərqlənir. Bunun səbəbi

qol bəzəklərinin gündəlik fəaliyyətdə daha çox maneələrlə qarşılaşmasıdır. Buna görə də qol bəzəkləri bu dövrdə daha dayanıqlı və möhkəm hazırlanırdı.

Qol bəzəkləri qolbaqlardan (bilərziklər, bazubəndlər) və üzüklərdən ibarətdir. Bilərziklər qolun bilək hissəsinə, bazubəndlər qolun dirsəkdən yuxarı hissəsinə – bazu sümüyünun üstünə taxılır. Bazubəndlər daha çox funksional xarakter daşıyır, ağır fiziki iş və ya döyüş zamanı qolun gücə düşməsinin qarşısını alırdı. Bazubəndlər diametrinə görə bilərziklərdən daha böyük ölçüdə hazırlanırdı. Bəzi hallarda bilərziklərə analoji bəzəklər ayağa da taxılırdı (2, s. 115).

Son Tunc-Erkən Dəmir dövrü üçün səciyyəvi olan qol bəzəkləri asasən tuncdan hazırlanırdı. Qol bəzəklərinin istehsalında daha çox tunca yer verilməsi yenə də qolbaqların daha dayanıqlı və davamlı istifadə edilməsi üçün idi. Lakin mis, qızıl və gümüşdən də qol bəzəkləri hazırlanırdı. Müxtəlif muncuqlardan hazırlanan qol bəzəkləri də geniş yayılmışdı.

Son Tunc-Erkən Dəmir dövrünün qolbaqları materialına, formasına və naxışlanmasına görə təsnif edilir. Qolbaqlar hazırlandığı materiala görə iki növə ayrılır:

**I. Muncuq düzümlərindən hazırlanmış qolbaqlar:** Gilançay vadisi arxeoloji abidələrinin tədqiqi zamanı əldə edilmiş bəzək əşyaları içərisində yarımqiymətli daşlardan hazırlanmış muncuqlar çoxluq təşkil edir. Bu muncuqlardan qolbaq, boyunbağı, saç bəzəyi və s. kimi bəzək əşyaları hazırlanmasında istifadə edilirdi. Qiymətli daşlara nisbətən, yarımqiymətli daş xammalı Naxçıvan MR ərazisində çoxluq təşkil etdiyindən, tapılması asan idi. Hələ qədim zamanlardan təbii daş xammalının bol olduğu Gilançay vadisində yaşayan insanlar ətrafda gördükləri müxtəlif rəngli, parlaq daşlardan məişətdə istifadə etməyə başlamışdılar. Gilançay vadisi nekropollarında əsasən, qırmızı rəngli əqiq, qranat, dağ billurundan hazırlanmış bəzək əşyalarına rast gəlinir (şəkil 1, 2). Bu daşlar nisbətən az sərt olduğu üçün onlar üzərində işləmək sənətkarlar üçün daha rahat idi. İnsanlar arasında hər bir daşın özünəməxsus mənası və şəfaverici xüsusiyyəti olduğuna inanılırdı. Göy rəngli lapis lazuli-lacivərd daşının nəzərə, pis gözə qarşı qoruyucu daş olduğuna, əqiq daşının ağlı və bədəni gücləndirdiyinə, opalın ay, günəş və torpağın gizli güclərinin qaynağı olduğuna, kvarsın sadəlik və gözəlliyi təmsil etdiyinə, sitrin daşının gözəl xəyalların, amestistin müqəddəs olan ruhların, turmalin daşının bilgi, zəkanı artırdığına inanılırdı. Üzvi daş olan incinin dənizi xatırlatması, su kimi təmiz və sadəliyi təmsil etdiyinə, mərcan daşının depressiyaya qarşı qoruma xüsusiyyətinin olduğuna, kəhribarın şəfa verici enerjisi olduğuna inanılırdı.

Hələ e.ə. IV minillikdə misirlilər kvars, ametist, zümrüd, yəşəm, qranat, malaxit və azuritdən müxtəlif növ bəzək əşyalarının hazırlanmasında istifadə edirdilər. Mirvarinin dənizdən çıxarılması, bəzək əşyası kimi istifadə edilməsi eramızdan iki min əvvələ aid edilir (4, s. 77).

**II. Metaldan (tunc, mis, qızıl, gümüş) hazırlanan qolbaqlar:** Metaldan hazırlanmış qolbaqları formasına görə aşağıdakı kimi təsnif edə bilərik:

**1. Halqa qolbaqlar:** qolbaqların ən sadə variantı olub, tam halqa şəklində hazırlanırdı. Bu tip qolbaqlar qolbaq sahibinin qolunun ölçüsünə uyğun olaraq hazırlanır, ölçülərini sonradan dəyişmək mümkün olmurdu. Halqa formalı qolbaqlar əsasən, tuncdan içi dolu formada hazırlanırdı. Bu qolbaqların üzəri sadə, naxışsız və ya çıxıntılı (dişli) formada ola bilirdi. Son Tunc-Erkən Dəmir dövründə Naxçıvan bölgəsində geniş yayılan bu qolbaqlar ətraflı tədqiq edilmişdir (şəkil 3).

**2. Sarmal (burma yaxud helezon) qolbaqlar**: tökmə üsulu ilə hazırlanan incə, uzun məftillərdən burma üsulu ilə hazırlanmış qolbaqlardır (şəkil 5). Bu növ qolbaqlar halqa qolbaqlardan fərqli olaraq, qola dolanmış şəkildə istifadə edilirdi. Sarmal qolbaqların əlverişli xüsusiyyəti ondan ibarət idi ki, ucları açıq olduğu üçün, bilək ölçülərinə uyğunlaşdırılması asan idi.

Tədqiqatçıların fikrinə görə, burma formalı qolbaqların üzərinə çəkilmiş cızıqlar sadəcə naxış xarakterli olmayıb, ehtiyac olduğu zaman qiymətli metaldan hazırlanmış qolbaqdan kiçik parçaların qopardılmasına xidmət edirdi (8, s. 151).

**3. Açıq qolbaqlar:** incə, uzun metal çubuq bükülərək insan qoluna uyğun şəkildə hazırlanırdı. Tökmə üsulu ilə hazırlanan bu qolbaqların ucları bir-birilə birləşdirilmir, açıq saxlanırdı. Ucları birləşməyən qolbaqlar halqa qolbaqlardan fərqli olaraq, şəxsi istifadə üçün hazırlanmır, istənilən biləyin ölçüsünə uyğunlaşdırıla bilirdi. Ucları birləşməyən qolbaqların əlverişli xüsusiyyəti o idi ki, bu qolbaqlar həm qola, həm də bazubənd kimi qolun yuxarı hissəsinə taxıla bilirdi. Ucları açıq qolbaqların da bir neçə fərqli forması vardır. Ucları birləşməyən qolbaqları aşağıdakı kimi təsnif edə bilərik:

**a)** Küt uclu qolbaqlar (şəkil 6)

**b)** Ucları yastı biçimli qolbaqlar (şəkil 4)

**c)** Ucları sivri biçimli qolbaqlar (şəkil 8)

**d)** Ucları geriyə doğru qıvrılmış qolbaqlar (şəkil 7)

**4. Ucları zoomorf qolbaqlar:** Tökmə üsulu ilə hazırlanan bu qolbaqlar qızıl, gümüş kimi qiymətli metallarla yanaşı, daha çox tuncdan istehsal olunurdu. Bu bilərziklərin uc hissələri bir-birinə baxan heyvanbaşı fiqurları ilə

bəzədilirdi. Gilançay vadisi nekropollarının tədqiqi zamanı ilanbaşlı tuncdan hazırlanmış qolbaqlara rast gəlinir. Son Tunc – Erkən Dəmir dövrü bəzəklərinə ümumi nəzər yetirdikdə, ilanbaşlı, aslanbaşlı və mifolojik heyvanbaşlı nümunələrə rast gəlirik.

**5. Lentşəkilli qolbaqlar:** enli, lentvari, ucları açıq formalı olub, tökmə üsulu ilə hazırlanırdı (6, s.10). Bu tipli qolbaqlara Naxçıvanın Sarıdərə və Kolanı nekropollarında rast gəlinmişdir (7, s. 99, 115). Halqa şəkilli qolbaqlara nisbətən, lentşəkilli qolbaqlara az təsadüf olunur. Sarıdərə nekropolundan tapılmış lentvari tunc qolbağın üzəri həndəsi (ziqzaq formalı) naxışlarla işlənmişdir.

Metaldan hazırlanmış heyvan fiqurlu qolbaqlardan istifadə edilməsi e.ə. I minilliyin əvvəllərindən başlayaraq Orta Əsrlərə qədər davam etmişdir. Muncuqlutəpə nekropollarından da tapılmış heyvan fiqurlu qolbaqlara təkcə Naxçıvan ərazisində deyil, Anadolu, xüsusən Van ətrafı territoriyalardan başlayaraq, Xocalı-Gədəbəy mədəniyyəti abidələrində də toplu şəkildə rast gəlirik. Muncuqlutəpə və Plovdağ nekropollarının tədqiqi zamanı əldə edilmiş müxtəlif formalı qolbaqlara Şərqi Anadolu-Van hövzəsində də rast gəlinir. Qaragündüz (9) nekropolundan tapılmış qolbaqlarla, Muncuqlutəpə və Plovdağ nekropolundan tapılmış qolbaqlar forma və ölçülərinə görə eyni olsalar da, xammalına görə fərqlidir. Metalişləmə sənətində usta olan urartulular silah və bəzək əşyaları istehsalında daha çox dəmirdən istifadə edirdilər. Naxçıvan ustaları isə daha çox tuncdan hazırlanmış bəzək əşyalarından istifadə edir və sonda ölünün yanına qoyurdular

Qolbağın üzərinə həkk edilmiş ornament və hansı metaldan hazırlanması onu istifadə edən şəxsin sosial statusu haqqında məlumat verir. Ən geniş yayılmış zərgərlik məhsulu olan qolbaqlar rəsmi olaraq yuxarı təbəqələr tərəfindən taxılır və saray emalatxanalarında mütəxəssis zərgərlər tərəfindən hazırlanırdı (10, s. 23).

Qol bəzəklərinin bir qrupu da üzüklərdir. Üzüklər aksesuar olmaqla yanaşı, gücün, hakimiyyətin də simvolu idi. Təsadüfi deyil ki, Orta əsrlərdə sultanlara məxsus xüsusi üzük həm də onların şəxsi möhürü idi. Son Tunc-Erkən Dəmir dövrü üçün tuncdan hazırlanmış müxtəlif formalı üzüklər aktual idi. Üzüklər də qolbaqlar kimi, tam halqa şəklində, ucları birləşmiş, ucları aralı və ucları yastı formada (şəkil 10, 11, 12) hazırlanırdı. Gilan çay vadisi arxeoloji abidələrindən əldə edilmiş qolbaqlar və üzüklərin müqayisəli təhlili göstərir ki, üzüklər və qolbaqlar formaca oxşar olub, bir-birindən ölçülərinə görə

fərqlənirdilər. Muncuqlutəpə nekropolundan tapılmış üzərində əqiq muncuq olan üzük (şəkil 9) xüsusilə maraqlıdır.

Ümumiyyətlə, bəzək əşyalarının bir qismi funksional olaraq daimi, bir qismi isə xüsusi təyinatlı olub müəyyən günlərdə istifadə edilirdi. Bunlara toy (mərasim) üçün istifadə edilən bəzək əşyalarının misal göstərə bilərik. Bu bəzəklərin hər biri sahibi dünyadan köçdüyü zaman onunla birlikdə qəbrə qoyulurdu. Dəfn adətində bəzək əşyalarının rolu maraqlıdır. Hələ Neolit dövründən dəfn mərasimləri xüsusi olaraq təşkil edilirdi. Qədim insanların düşüncəsinə görə, dünyasını dəyişmiş şəxs, sadəcə bu dünya ilə vidalaşırdı. Ruhun ölməzliyinə inanc həmin dövrlərdən bu günə kimi aktualdır. Axirət dünyasına inamın nəticəsi olaraq, dünyasını dəyişmiş şəxsi xüsusi mərasimlə, digər dünyaya yola salırdılar. Bu ənənə hər bir dövr üçün özünəməxsus və müxtəlifdir. Son Tunc-Erkən Dəmir dövrü qəbir abidələrində ölünün yanına o biri dünyada istifadə etməsi üçün qabda yemək, su, qurbanlıq heyvan, silah və bəzək əşyaları qoyurdular. Bu dövrdə istifadə edilən bəzək əşyaları, eyni zamanda qoruyucu funksiya da daşıyırdı. Müxtəlif formalı asma bəzəklər - qoç fiqurlu asmalar, günəş simvolu olan asma bəzəklər talisman kimi istifadə olunurdu. Təbii, yarımqiymətli daşlardan hazırlanmış muncuqlardan da qoruyucu məqsədlə istifadə edirdilər.

Son Tunc-Erkən Dəmir dövrü qəbirlərində aşkar edilmiş bəzək əşyaları haqqında tədqiqatçıların fikirləri maraqlıdır. Dəfndə idtifadə olunan bəzək əşyalarının mərhumun gündəlik istifadə etdiyi şəxsi əşyalarından olması, yaxud da sırf dəfn mərasimi üçün istehsal olunması fikri mübahisəlidir. Arxeoloq P.Qasımov Tovuz rayonu ərazisindəki Son Tunc dövrü Xocalı-Gədəbəy mədəniyyətinə aid olan 10 nömrəli kurqandan tapılmış artefaktların orijinal olmadığı, qəbir üçün xüsusi olaraq istehsal edildiyi fikrindədir. Tədqiqatçının fikrincə, bu dövrdə tuncdan hazırlanmış müxtəlif bəzək əşyaları eyni zamanda silahların da özü deyil, imitasiyası qəbrə qoyulurdu (5, s. 27). Bu fikir bütün regionlar üçün keçərli deyil. Belə ki, Gilançay vadisi nekropolları qəbirlərindən tapılmış bəzək əşyaları və silahların imitasiya olmadığını deyə bilərik. "Xüsusi olaraq dəfn üçün" istehsal fikrini yalnız keramikanın bir hissəsinə aid etmək olar. Dəfn zamanı ölünün yanına qoyulmuş bəzək əşyaları əsasən, onun sağ ikən istifadə etdiyi əşyalar olurdu. Bu bəzək əşyalarının bir qismi şəxsin gündəlik istifadə etdiyi əşyalar olsa da, böyük bir qismi xüsusi mərasimlər zamanı istifadə olunan bəzək əşyaları idi. Təbiidir ki, mərasimlər (toy, bayram, yas, dini mərasimlər) zamanı istifadə edilmiş bəzək əşyaları, gündəlik istifadə edilən bəzək əşyalarına nisbətən daha az istifadə olunurdu.

Bu ehtimalı daha çox tuncdan hazırlanmış qolbaqlara aid etmək daha düzgündür. Tuncdan hazırlanmış, ağır qolbaqları gündəlik olaraq qolda gəzdirmək, onlarla gün keçirmək, iş görmək çətin olardı. Günlük istifadə üçün müxtəlif yarımqiymətli daşlardan hazırlanmış muncuq düzümləri daha ideal və uyğun idi.

Keçən əsrin sonlarında J.Morqan Lalvar qəbirlərindən tapılmış qolbaqların çəkisini Assur çəki sistemi ilə müqayisə etmiş, onların oxşar çəhətlərini qeyd etmişdir (3, s.107). Görünür, Qafqazda, o cümlədən Naxçıvan bölgəsində yaşayan tayfalar mübadilə vasitəsi kimi metal bəzək əşyalarından istifadə etmişlər. III Plovdağ nekropolunun 10 nömrəli daş qutu qəbrindən tuncdan hazırlanmış qolbaqlar tapılmışdır. Qəbir dağıntıya məruz qalmış, tunc qolbaqlar yaxşı saxlanmamış, müəyyən qədər çürümüşdür. Qəbirdən 7 ədəd iç-içə keçmiş qolbaq aşkar edilmişdir. Qolbaqların diametri 12.3-13.3 sm aralığında dəyişir. Yalnız bir ədəd tunc qolbaq digərlərindən fərqlənir və diametrinə görə (8.3 sm) digərlərindən kiçikdir (1, s. 50). Qolbaqların heç birinin uc hissəsi birləşmir, üzərində hər hansı naxış və ya heyvan fiquru görünmür. Birindən başqa, digər 6 ədəd qolbaq olduqca ağırdır. B.İbrahimlinin fikrinə görə, bu qolbaqlar heç də günlük istifadə üçün nəzərdə tutulmayıb. Bu zaman iki fərziyyə ortaya çıxır. İlk olaraq düşünə bilərik ki, ağırlığına görə fərqlənən bu qolbaqlar məişətdə, gündəlik istifadə üçün deyil, xüsusi olaraq qəbrə qoyulmaq üçün hazırlanmışdır. Məlumdur ki, insanların axirət dünyasına, ruhun ölməzliyinə inamı qəbrə həmin şəxslərə özəl müxtəlif avadanlıqların qoyulmasını şərtləndirirdi. Lakin Plovdağ nekropolllarının indiyə qədərki tədqiqi göstərir ki, burada yaşayan tayfalar heç də varlı olmamış, əsasən əkinçilik və maldarlıqla məşğul olmuşdur. Tuncun qızıl qədər qiymətli olduğu bu dövrdə metal əşyanın sırf qəbrə qoyulmaq üçün istehsal edilməsi isə absurd səslənir.

Digər bir ehtimal - bu qolbaqların mübadilə vasitəsi kimi istifadə olunması fikri daha real görünür. Məlumdur ki, Son Tunc-Erkən Dəmir dövründə insanlar mübadilə vasitəsi kimi mal-qara, saxsı qablar, silahlar və müxtəlif növ bəzək əşyalarından da istifadə etmişlər. Beləliklə tuncdan hazırlanmış bəzək əşyalarından, o cümlədən qolbaqlardan, bir növ mübadilə vasitəsi kimi istifadə edilirdi. Qolbaqlar sosial münasibətlərdə də müəyyən qədər rol oynamış, natural vergi kimi də istifadə edilmişdir (12, s.158). Zəngin mis yataqlarının bol olduğu Qafqazda metal külçələr pul vəsaiti kimi istifadə edilirdi. Müxtəlif çəki və ölçülərdə olan metal qolbaqlar da əsas mübadilə vasitələrindən biri idi (11, s.147)

Arxeoloji tədqiqatlar sübut edir ki, sənətkarlığın və metalişləmənin çiçəkləndiyi Son Tunc-Erkən Dəmir dövründə qəbir abidələrindən tapılmış artefaktların mühüm hissəsini təşkil edən bəzək əşyaları içərisində qolbaqlar önəmli yer tuturdu. Əldə olunmuş bu dövrə aid qol bəzəkləri əsasən, metaldan – tuncdan hazırlansa da, müxtəlif növ muncuq düzümlərindən hazırlanmış qolbaqlara da rast gəlinir. Bu dövrdə qolbaqların bir qrupu, eyni zamanda mübadilə vasitəsi rolunu da oynayırdı.

**Ədəbiyyat**

1. B.İbrahimli, E.Əliyev, G.Bayramova. Xaraba Gilan arxeoloji ekspedisiyasının İkinci dəstəsinin 2021-ci ildə I Plovdağ və III Plovdağ nekropollarında apardığı arxeoloji qazıntı işlərinin hesabatı. Bakı 2021, 76 s.
2. B.Rəcəbova. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsalı tarixindən (IV-XVII əsrlər). Bakı, Elm 2009, 303 s.
3. J.Morgan. Mission scientifique au Caucase, vol I, Paris 1899
4. M.Qaşqay, Ə.Mahmudov. Qiymətli və yarımqiymətli rəngli daşlar. Bakı, Azərnəşr 1973, 343 s.
5. P.Qasımov. Xocalı-Gədəbəy mədəniyyətinin dəfn ənənəsində replika əşyalar (Tovuz bölgəsindən olan Son Tunc dövrü tapıntıları üzrə) //Azərbaycan arxeologiyası 2017, Vol 20, num 2, s. 22-38.
6. Ş.Sadıqzadə Qədim Azərbaycan bəzəkləri. Bakı, İşıq 1971, 39 s.
7. V.Baxşəliyev. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Elm, 2002, 128 s.
8. H.Tekin. adeni eser tipolojisi, Ankara, Bilgin kültür sanat yayınları, 2018, 216 s.
9. V.Sevin, E.Kavaklı. Bir Erken Demir çağ nekropolü. Van/Karagündüz. İstanbul, Arkeoloji ve sanat yayınları, 1996, 63 s.
10. V.Timur. Van müzesindeki Urartu bilezikleri. Yüksek lisans tezi, Van 2011, 146 s.
11. Г.Джафаров. Азербайжан и древний Передний Восток: культурно-экономические связи в эпоху поздней бронзы и раннего железа. Баку:2023, 232с.
12. З.Буниятов. Из истории Кафказской Албании, Издво АН Азерб. ССР, Баку, 1962, 192 с.

## Summary

## Arm adornments of the Late Bronze – Early Iron Age

**Gunay Bayramova**

Ornaments make up the vast majority of artifacts found in grave monuments of the Late Bronze-Early Iron Age when craftsmanship and metalworking flourished. Ornaments are divided into subgroups such as head ornaments, neck ornaments, and arm and dress ornaments. Arm ornaments are the most frequently recovered artifacts during Late Bronze-Early Iron archaeological excavations. Although bracelets are mainly made of metal - bronze, there are also many bracelets made of different types of beads. In addition, the mentioned period is divided into several according to the form of arm ornaments. Ancient people used these bracelets not only as a decoration of clothing. Bracelets also served as a means of exchange.

**Keywords:** Late Bronze-Early Iron Age, graves, ornaments, bracelets

## Резюме

## Наручные украшения позднебронзового – раннего железного века

**Гюнай Байрамова**

Украшения составляют подавляющее большинство артефактов, найденных в погребальных памятниках позднего бронзового - раннего железного века, когда процветали ремесла и металлообработка. Украшения делятся на подгруппы, такие как украшения для головы, шейные украшения, украшения для рук и одежды. Украшения для рук являются наиболее часто находимыми артефактами во время археологических раскопок. Хотя браслеты в основном изготавливаются из металла - бронзы, также существует множество браслетов из разных видов бусин. Древние люди использовали эти браслеты не только как украшение одежды. Браслеты также служили средством обмена.

**Ключевые слова:** Поздняя бронза-ранний железный век, могилы, украшения, браслеты.



**Şəkil 1**



**Şəkil 2**



**Şəkil 3**



**Şəkil 4**



**Şəkil 5**



**Şəkil 6**



**Şəkil 7**



**Şəkil 8**

**Tablo I.** Tuncdan və muncuq düzümlərindən hazırlanmış qolbaqlar.



**Şəkil 9**



**Şəkil 10**




**Şəkil 11** **Şəkil 12**

**Tablo II.** Tuncdan hazırlanmış müxtəlif formalı qolbaq və üzüklər